# Vətənə oğul məhəbbəti...

**Gündüz Etibar oğlu Əliyev özünü Vətən, torpaq yolunda fəda edəndə ömrünün 18-sş ilinə hələ təzə-təzə qədəm qoymuşdu.**



Həyatın bu qısa vaxtında insanlığın zinəti sayılan saf və ülvi dəyərləri parlaq xarakterində cəmləyən yeniyetmə ikinci Qarabağ döyüşündə göstərdiyi qəhrəmanlıqla yaşının çərçivəsinə sığmayan bir tarix yazdı. Bu hünər Lerik rayonunut ucqar dağ kəndi Lodada dünyaya göz açan Gündüz Əliyevi bütün Azərbaycana tanıtmaqla, millətin qürur yerinə döndərdi.

Erməni dığaların Azərbaycanın ulu, müqəddəs yurd yerləri olan Qarabağ torpaqlarına ədalətsiz təcavüzü orta məktəbdə oxuduğu zaman Gündüzü narahat edirdi. Odur ki, 2020-ci ilin aprel çağırışında Milli Ordu sıralarına yola düşəndə ürəyində bir istək vardı: nəyin bahasına olursa-olsun, mənfur düşməndən qisas almalı. Qəlbi sevdalı Lerikli balası Tərtərdə Vətən torpaqlarının keşiyini çəkir. Yaxşı döyüş qabiliyyətinə malik olmaqdan ötrü ilk gündən hərbi hissənin bütün əməliyyat təlimlərində fəal iştirak edir. Əsgər yoldaşları, komandirləri tərəfindən olduqca cəsur, mərd əsgər, ləyaqətli vətəndaş kimi tanınır.

İgid əsgər Gündüzün düşmənlə ilk vuruş meydanı Tovuz döyüşləri olur. Dığalara layiqli cavab verməklə bir qədər Vətən eşqli ürəyi rahatlıq tapır və qarşıdan gələn böyük zəfəri gözləyir... Vətən müharibəsi başlayan gündən Gündüz yağı düşmənə yenə qalib gəlmək istəyi ilə odun-alovun içində öndə döyüşür. Qarabağ torpaqlarının qarış-qarış azad olmasında böyük fədakarlıq nümunəsi göstərir. Hər dəfə yağı düşmənlə üz-üzə gələndə onların onundan çoxunu məhv edir. Ağır məqamlarda yaralı döyüş yoldaşlarını da müharibə meydanından çıxarmağı bacarır. 30 sentyabrda Hadrut istiqamətində gedən döyüşlərdə Vətənin şərəfini, torpağın qürurunu uca tutmaqla şəhidlik zirvəsinə ucalır. Qarabağın mətin, xilaskar qəhrəman oğlu kimi tarixin yaddaşında iz qoyur... Bəli, indi milyonların dilində ən əziz kəlmə Gündüzün adıdır. Ölümündən sonra layiq görüldüyü "Vətən uğrunda" medalı isə dövlətin öz qəhrəman oğluna verdiyi dəyərin təzahürüdür.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Bakı xəbər 2021.- 16 aprel.- S.12.